**Mühazirə .**

**Fənn :** Azərbaycan xor ədəbiyyatı .

**İxtisas :** Xor dirijorluğu

**Kurs :** III

**Müəllim :** Mahmudova İradə

**Mühazirə № 1 .**

**XX - əsrin 20 – 30 cu illərin Azərbaycan xor musiqisinin yaranması .**

Azərbaycan musiqi mədəniyyətinin mənbəyi qədim dövrlərə təsadüf edilir . O , uzun inkişaf yolu keçərək təbii və orijinal xüsusiyyətə malikdir . Azərbaycanın - mahnı sənəti müxtəlif janrlarda , orijinal ladlar əsasında inkişaf edərək zəngin muğamları ilə fərqlənir . Xalq yaradıcılığının xüsusiyyətlərinə ən çox aşıq və xanəndə sənətində rast gəlmək olar .

Azərbaycanın musiqi mədəniyyəti inkişaf edərək köhnə forma və janrları yeniləri və onların inkişafı ilə əvəz etdi . Həmin dövrdə Azərbaycanda xor sənətinin inkişafı böyük əhəmiyyətə malik idi . Xor kollektivlərinin yaradılmasında və onun repertuarlarının hazırlanmasında , ilk növbədə Ü. Hacıbəylinin əvəzsiz rolunu qeyd etmək lazımdır . Ü. Hacıbəyli Azərbaycanda xor mədəniyyətinin ilk professional banisi hesab edilir . Dahi bəstəkar Azərbaycan milli musiqisinə uyğun olan harmonik üslubu işlənmiş , bu məqsəd ilə bir neçə xalq mahnısını xor üçün çoxsəsli şəkildə köçürmüşdür .

Xor mədəniyyətinin inkişafının nəinki musiqidə , həm də ictimaiyyətdə lazım və vacib olmasını Ü. Hacıbəyovun silahdaşı Müslüm Maqomayev də dərk edərək 1905 -1906 cı illər Lənkəran şəhərində işlərkən öz tələbələrindən və həvəskar musiqiçilərdən ibarət xor təşkil etmişdir .

Ü. Hacıbəyov , M . Maqomayev və başqaları milli mədəniyyətin hərtərəfli inkişafında , başqa xalqlarla mədəni əlaqələrin genişləndirilməsində , öz professional musiqiçilərinin hazırlanmasında - onların təhsil və tərbiyəsi , opera teatrının , xor mədəniyyətinin inkişafı , məktəb və mədəni maarif təşkilatlarda xorla oxumanın tətbiqi üçün aktiv və fəal iştirak etmişlər . Ü . Hacıbəyovun « Leyli və Məcnun » , « Koroğlu », M. Maqomayevin « Nərgiz » , R. Qliyerin « Şah – Sənəm » , Q. Qarayevin və C. Hacıyevin « Vətən » operaları milli opera sənətinin yaranmasında ilk nümunələrdən sayılır və bu operalar solo oxuma , orkestr musiqisi və çoxsəsli xor musiqi mədəniyyətinin inkişafında və yayılmasında böyük rol oynamışlar . Ü. Hacıbeyli ilk çoxsəsli xoru məhz 1926 – cı ildə konservatoriyada

yaratmışdır . Bu sahəni günü –gündən inkişaf etdirərək , bir çox xor işləmələri və kontatalar yaratmışdır. Dahi bəstəkar bu böyük işin öhdəsindən çox məharətlə gələrək Azərbaycanın ilk milli professional xorunun yaranmasına müvəffəq olmuşdur .

Xor öz inkişaf yolunu dahi bəstəkar Ü. Hacıbəylinin 1908 ci ildə “ Leyli və Məcnun ” operasını səhnəyə qoyarkən tapmışdır . Beləki bəstəkarın bu operada xor parçalarından istifadə etməsi , ilk ikisəsli xorun yaranmasına gətirib çıxarmışdır . Həmin illərdə Azərbaycan musiqi mədəniyyətində olan böyük çevriliş demək olarki , xor ifaçılığı hətta öz milli çərçivəsində çıxmağa başlayırdı .

Ü. Hacıbəylinin yaradıcılıq və musiqi fəaliyyəti 1920 ci ildə daha məqsədə uyğun formada özünü göstərirdi . Beləki o , gələcək Azərbaycan Dövlət Konservatoriyasını yaradarkən ilk öncə onun nəzdində tələbələrdən ibarət xor kollektivini yaratmaq idi . Hətta Konservatoriyanın nizamnaməsində də bu haqda göstərilmişdir . 1926 cı ildə nəhayət Azərbaycan Dövlət Konservatoriyasının nəzdində çoxsəsli xor yaratmaqa nail oldu . Lakin, bu kollektivin ömrü çox az çəkdi və dağılmasına səbəb oldu . Bununla belə , dahi bəstəkar öz prinsipiallığından əl çəkmir , 1936 cı ildə 100 nəfərdən ibarət Azərbaycan dövlət xorunu yaradır . Qeyd edək ki , 1938 ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında Azərbaycan Dövlət Xorun uğurlu çıxışı dinləyicilərin rəğbətini qazanmışdı . Hətta bir çox iştirakçılara o , cümlədən xor artistlərinə fəxri adlar verilmişdir.

1940 cı ildə Ü. Hacıbəylinin rəhbərliyi ilə 54 nəfərdən ibarət Xor Kapellası yarandı . Lakin ikinci dünya müharibəsi illərində xorun fəaliyyətində bir neçə il durğunluq yaranır . Sonrakı illərdə konservatoriyada xor dirijorluq kafedrasının yaradılması ilə əlaqədar olaraq bu sahədə inkişaf özünü göstərdi . Bu kafedrada bir çox istedadlı xormeystrlərdən : C . Cahangirov , E . Novruzov , N . Məlikov , L . Atakişiyeva , S. Ağayeva , Z. İsmayılova və başqaları bu sahədə pedaqoji fəaliyyətləri ilə öz töhfələrini vermişdirlər .

## Mühazirə № 2 .

## Ü . Hacıbəyovun opera yaradıcılığı .

Ü . Hacıbəyov görkəmli Azərbaycan bəstəkarı , musiqi mədəniyyətinin klassikidir . Onun yaradıcılığı milli musiqi sənəti tarixində əsas rol oynamışdır . Azərbaycan professional musiqi yaradıcılığının inkişafı , bir çox janrların meydana gəlməsi , bir sıra professional kollektivlərin yaranması dahi bəstəkarın adı ilə bağlıdır . İlk opera , musiqili komediyalar , kütləvi mahnılar , qəzetlər , kontata – oratoriya musiqisi , xalq çalğı alətləri orkestri üçün

əsərlər , eləcə Azərbaycan musiqi sənətinin şah əsəri « Koroğlu » nun müəllifi olan Ü. Hacıbəyov milli mədəniyyətin inkişafında həm də ictimai siyasi xadim , alim , folklorçu , publisist , pedaqoq kimi görkəmli rol oynayıb . 1908 ci il yanvarın 8 də Bakı dram teatrının səhnəsində Ü. Hacıbəyovun ilk « Leyli və Məcnun » operası tamaşaya qoyuldu . Əsərin əsasını dahi şair Fizulinin məşhur « Leyli və Məcnun » poemasının sujeti təşkil edir . Bəstəkar Fizuli poeziyasının ruhunu , onun lirizmini , romantizmini musiqi formasında ifadə edə bilmək üçün xalq yaradıcılığının klassik nümunələri olan muğamlara müraciət edir . Operanın musiqisində muğamlarla sadə opera formaları növbə ilə bir – birini əvəz edir . Ü . Hacıbəyov özü « Leyli və Məcnun » operasının üslubunu muğam improvizasiya operası kimi müəyyənləşdirir . Ü . Hacıbəyov « Leyli və Məcnun » operası bütün Azərbaycanda böyük şöhrət qazandı və xalq tərəfindən çox sevildi . Bu operadan sonra bəstəkar bir sıra operalar : « Şeyx Sənan » (1909) , « Rüstəm və Söhrab » (1910) , « Şah Abbas və Xurşudbanu » ( 1911) , « Əsli və Kərəm » ( 1912) yazmışdır . 1937 ci ildə Ü. Hacıbəyov «Koroğlu » operasını bitirir . XVII əsrin əvvəllərində Azərbaycan xalqının yadelli işğalçılara və yerli feodallara qarşı apardığı mübarizəsi və xalq qəhrəmanı Koroğlu haqqında yaranan məşhur “Koroğlu ” dastanının motivləri operanın əsas sujetini təşkil edir . Ü. Hacıbəyov epik sujeti dramatikləşdirib . Xalqın möhtəşəmliyini aydın təsvir edən monumental kütləvi səhnələrin xüsusi rolu operanı xalq qəhrəmanlıq dastanı adlandırmağa imkan verir . Hər bir epizoddakı aydın , monolit obraz bütövlükdə ardıcıl surətdə onu səciyyələndirən xor və rəqs səhnələrinin intonasiya əsaslı leytmotivlərin yekunu kimi meydana çıxır . Ü. Hacıbəyov ömrünün son illərində müasir mövzulu « Firuzə » operası üzərində işləyir . Lakin həmin operanı tamamlaya bilmədi , 1948 ci ildə ağır xəstəlikdən sonra vəfat etdi .

## Mühazirə № 3 .

## Ü . Hacıbəyovun “ Leyli və Məcnun ” operasından xorlar .

Musiqi tarixində ilk muğam operası , 1908 ci il yanvarın 8 də Bakı dram teatrının səhnəsində Ü. Hacıbəyovun ilk “ Leyli və Məcnun ” operası tamaşaya qoyuldu . Əsərin əsasını dahi şair M. Füzulinin məşhur “ Leyli və Məcnun ” poemasının sujeti təşkil edir . Bəstəkar Füzuli poeziyasının ruhunu , onun lirizmini , romantizmini musiqi formasında ifadə edə bilmək üçün xalq yaradıcılığının klassik nümunələri olan muğamlara müraciət edir . “Leyli və Məcnun ” operası 5 pərdə , 6 şəkildən ibarətdir . Opera uvertura ilə başlayır . Uverturada operadan alınmış mövzular səslənir . Uverturanı onun ardınca gələn kiçik proloq “ Şəbi Hicran ” xoru əvəz edir . İki səsli “ Şəbi Hicran ” xoru Ü. Hacıbəyovun yaratdığı çoxsəsliliyin ilk sadə nümunəsidir . “ Leyli və Məcnun ” operasında xorlar :
Proloq – xor “ Şəbi Hicran ”

1. Pərdə : Birinci şəkil

№ 3 Qızlar və oğlanların xoru

2. Pərdə : İkinci şəkil

№ 5 : Qızların xoru

№ 6 : Xor : Vermə , vermə

№ 7 : Məcnunun elçilərinin xoru

№ 8 : İbn – Səlamın elçilərinin xoru

3. Pərdə : Üçüncü şəkil

№ 10 : Qonaqların xoru və rəqs

№ 12 : Xor ( Məcnun , Məcnun )

4. Pərdə : Dördüncü şəkil

№ 14 : Qızların xoru ( Xəyal )

№ 15 : Xor ( Söylə bir görək )

№ 16 : Nofərin xor ilə səhnəsi

№ 17 : Qasidlərin xoru

5. Pərdə : Beşinci şəkil

------------------------

Altıncı şəkil

№ 22 : Son xor ( Ey bikəsi )

**Mühazirə № 4 .**

**Ü . Hacıbəyovun “ Koroğlu ” operasından xorlar .**

Ü . Hacıbəyov 1937 ci ildə “ Koroğlu ” operasını bitirib . “ Koroğlu ” Azərbaycan klassik opera formalarının dərindən mənimsənilməsi və onların milli zəmin əsasında novatorcasına , özünəməxsus tərzdə , təcəssüm etdirilməsi vəzifəsini həyata keçirdi . Ü .Hacıbəyov “ Koroğlu ” operası ilə Azərbaycan incəsənətinə rus musiqi səhnə sənətində əvvəllər , XIX əsrdə meydana çıxan və özündə epik , lirik , dramatik məişət cizgilərini birləşdirən geniş yayılmış klassik epik – dramatik opera tipi tətbiq edir . Operada qəhrəmalıq mövzusu xalqın , onun ayrı –ayrı nümayəndələrinin feodal hakimiyyəti ilə fəal dinamik ifadə olunmuş münaqişəsində açılır . Əsərin ümumi istiqaməti müəyyən dramaturji məna olan bütün kütləvi səhnələrə də dinamiklik verir . Yalnız xorlar deyil , reqslər də belədir . Xor və reqslərin dramaturji əhəmiyyətini solo epizodlarla , ariozlarla , recitativlərlə intonasiya əlaqəsi göstərir . Operada xor böyük yer tutur və xalqın azadlıq mübarizəsini əks etdirir. Opera böyük xalq xor səhnəsindən “ Bu gözəl təbiət , bu şən mənzərə, bir daha səadət verməz bizlərə ” başlayır , final xoru ilə “ Qoy rədd olsun , qoy məhv olsun xanlar , bəylər , zalımlar ” birinci pərdə qurtarır . Operanın üçüncü pərdəsində üsyana qalxmış obrazına həsr edilmiş xor nömrələri böyük yer tutur . Bu pərdə xalqın səciyyəsində ən yüksək mərhələdir . Operanın III pərdəsindəki “ Çənlibəl ” xoru xalqın xaraktiristikasında mərkəzi yer tutur . Bu xorda qətiyyət , igidlik , öz gücünə sarsılmaz inam hiss olunur . “And ” xoru Koroğlunun partiyasının mövzusu üzərində qurulur . Xor musiqisi nikbin ruhu , əzəməti ilə adamı valeh edir . V pərdədə opera mərdlik ifadə edən xor və ümumi rəqslə bitir :

I pərdə

“Bu gözəl təbiət ” xoru

II pərdə

“ Döyüşçülərin xoru ”

III pərdə

“ Çənlibel xoru ”

IV pərdə

“ Gözəl xanım ” xoru

“ And ” xoru

V pərdə

“ Gəl rəhm et ” xoru

**Mühazirə № 5 .**

**M . Maqomayevin opera yaradıcılığı .**

M . Maqomayev məşhur Azərbaycan bəstəkarı və görkəmli musiqi xadimidir . O , xalqımızın musiqi sənətinin inkişafında böyük rol oynamışdır . M . Maqomayevin iki operanın müəllifidir . “ Şah İsmayıl ” , “ Nərgiz ” operası . Bu operalar Azərbaycan musiqili teatrının repertuarına daxil olmuşdur . “ Şah İsmayıl ” ən yaxşı muğam operalarından biri kimi inqilaba qədərki Azərbaycan operasının inkişaf yoluna bir növ yekun vurur . biridir . “ 1916 ” cı ildə bəstəkar ilk operasını “ Şah İsmayılı ” yaradır . Həmin opera 1919 cu il martın 7 də tamaşaya qoyulmuşdur . “ Nərgiz ” operasının yaradılması Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında böyük yaradıcılıq nəaliyyəti və mühüm mərhələ olmuşdur . Həmin opera 1935 cı il dekabrın 24 də Azərbaycan Dövlət opera balet teatrının səhnəsində tamaşaya hazırlanmışdır . “ Şah İsmayıl ” operasının ikinci redaksiyası 1924 cu ildə M . F . Axundov adına Azərbaycan Dövlət Opera teatrında tamaşaya qoyuldu . Bu yeni redaksiyada “ Şah İsmayıl ” operasının əsas xüsusiyyəti bunda idi ki , əsərdə notla yazılan materiala əvvəlkindən daha çox yer verilmişdir . 1930 cu ildə bəstəkar operanın üçüncü və axırıncı redaksiyasını yaradır .

Operanın süjeti Səfəvi dövlətinin əsasını qoyan I Şah İsmayıl haqqında olan məşhur Azərbaycan xalq dastanına əsaslanır . Bəstəkar azərbaycan xalq musiqisinin müxtəlif janrlarından bacarıqla istifadə edir . Burada həm “ Qarabağ şikəstəsi ” , həm ritmik muğam “ kəsmə şikəstə ” , həm aşiq musiqisi “ Kərəmi ” , həm də lirik xalq mahnılarını xatırladan epizodlar vardır . Operada kütləvi səhnələrə böyük yer verilmişdir . Müəllif xorlarda azərbaycan xalq mahnılarına xas olan xüsusiyyətlərdən istifadə edərək , ayrı- ayrı səhnələrdə xalqın əhval – ruhiyyəsini ifadə edə bilmişdir . Bəstəkarın yaratdığı gözəl melodiyalardan biri II pərdədə “ Axşam oldu ” kişi xorudur . V pərdədə səslənən xor isə öz əhval – ruhiyyəsi ilə “ Xalqın xoru ” nu göstərmək olar . Bu xor öz gümrah marşvari xarakteri ilə xorlardan fərqlənir . Xorların içərisində xalq koloritini əks etdirən şah İsmayılın bağışlanması haqqında “ Aman diləyən ” yalvarış xoru ( V pərdə ) xüsusilə təsirlidir .

**Mühazirə № 6 .**

**M . Maqomayevin “ Nərgiz ” operasından xorlar .**

M . Maqomayevin “ Nərgiz ” operası ilk Azərbaycan operalarından biridir . Bu opera 1935 ci ildə tamaşaya qoyulmuşdur . Operada sovet hakimiyyəti uğrunda mübarizə mövzusu əks etdirilmişdir . Operadakı hadisələr 1920 ci ilin baharında fəhlə və kəndlilərin bütün Azərbaycanda sovet hakimiyyətinin qələbəsi uğrundakı inqilabi çıxışları ərəfəsində baş verir . Fəhlələrin rəhbərliyi altında kəndlilər mülkədarlarla , müsavatçı quldur dəstələri , ruhanilərlə mübarizəyə başlamışdılar . Kəndli qızı Nərgiz , çobanlardan Əliyar , Qazar və başqaları bu mübarizədə iştirak edirlər . “ Nərgiz ” operasında xalqı səciyyələndirən xor epizodları mühüm yer tutur . Operadakı xorlar çox melodik quruluşuna görə zəngindir . Operanın ən poetik səhifələrindən biri I pərdə səslənən “ Nərgizin qızlar xoru ” ilə mahnısıdır . Burada baharın gəlişi , məhəbbət hissləri tərənnüm edilir . Bir çox cəhətləri ilə bu xor azərbaycan xalq mahnılarına yaxındır . Digər lirik xor nümunəsi kimi III pərdədə səslənən qızların xorunu göstərmək olar . Burada bəstəkar “ Boxçadan gələn səs ” xalq mahnısından istifadə etmişdir . Xorun əsasını “ Çıxdı günəş ” xalq mahnısı təşkil edir . Operanın gözəl səhnələrindən biri “ Yoxsulların xoru ” dur . Burada xalq düşmənlə sona qədər mübarizə aparmağı and içir . Xor kədərli giriş ilə başlayır , düşmən üzərində qələbəni , xalqın birliyini operanın son xoru əks etdirir .

**Mühazirə № 7 .**

**C . Cahangirovun yaradıcılığı .**

C. Cahangirov Azərbaycanın tanınmış və istedadlı bəstəkarlarından biridir . Onun yaratdığı bir sıra əsərlər geniş şöhrət qazanmışdır . Onun əsərlərində ideya məzmununun aktuallığı , öz xalqının musiqisi ilə möhkəm bağlılıq , parlaq melodizim diqqəti cəlb edir . C . cahangirovun vokal , xüsusilə xor sənətinə meyli onun yaradıcılığında bu sahənin aparıcı rolunu müəyyənləşdirmişdir .

Cahangir Şirgəşt oğlu Cahangirov 1921 ci ildə Bakının Balaxanı kəndində fəhlə ailəsində anadan olmuşdur . Uşaq yaşlarından o , musiqiyə maraq göstərir , yeddiillik məktəbi qurtarandan sonra teatr texnikumunda , 1937 ci ildən musiqi məktəbində musiqi nəzəriyyəsi şöbəsində oxuyur . 1940 - cı ildən C . Cahangirov Azərbaycan Dövlət Konservatoriyasında Azərbaycan xalq musiqi şöbəsində məşğul olmağa başlayır , orada

Ü . Hacıbəyovun rəhbərliyi altında Azərbaycan xalq musiqisini öyrənir . 1944 cü ildən başlayaraq C . Cahangirov Azərbaycan Dövlət radio verlişləri komitəsində xorun rəhbəri vəzifəsində işləyir . 1945 ci ildə C. Cahangirov Ü . Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının nəzəriyyə - bəstəkarlıq şöbəsində , professor B .İ . Zeydmanın bəstəkarlıq sinfinə daxil olur . C. Cahangirov Azərbaycan musiqiçilər qrupu ilə birlikdə yaradıcılıq məqsədilə Cənubi Azərbaycana yola düşür . Cənubi Azərbaycanda olan müddətdə bir sıra mahnılar yazmışdır . Onlardan Cənubi Azərbaycan şairlərinin sözlərinə yazılmış " Təbrizim " və " Partizan mahnısı " nı göstərmək olar . 1948 ci ildə C. Cahangirovun skripka üçün sonatası , bir neçə mahnısı , xor üçün müşayiətsiz oxunan iki mahnısı , A. S . Puşkinin sözlərinə yazılmış " Soruşma " və " Bülbül " meydana gəlir . 1949 cu ildə onun ilk böyük əsəri " Arazın o tayında " vokal – simfonik poeması səslənmişdir 1954 cu ildən başlayaraq Cahangirov Azərbaycan Dövlət Konservatoriyasının xor dirijorluq kafedrasında işləyir . Azərbaycanda sovet hakimiyyəti quruluşunun 30 –cu ildönümünə həsr edilmiş simfonik orkestr üçün " Bayram süitası " , " Təntənəli yürüş " , daha sonra " Xəzər" " Vətən qızları " , " Bahar olsun " , " Məhsul mahnısı " , " Bahar mahnısı " və s. mahnıları yaranır . Bəstəkarın xor musiqisi sahəsində xidmətləri xüsusilə böyükdür . Bura xalq mahnıları işləmələrinin gözəl nümunələri və iri həcmli vokal simfonik lövhələr – " Sabir " oratoriyası " Fizuli " , " Nəsimi " kontatası , " Xalqlar dostluğu " süitası , " Azərbaycan " odası , valehedici xor miniatürləri " Qəzəl " və s. daxildir . " Azad " operası M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində 1957 ci ildə tamaşaya qoyulmuşdur . Sonrakı illərdə bəstəkarın " Dan ulduzu, bir də mən " , " Gözlərin" , xeyli uşaq mahnıları və s. yeni mahnıları yaranır . C .Cahangirovun M . F. Axundov adına Opera və Balet teatrının səhnəsində tamaşaya qoyulan " Xanəndənin taleyi " operası ( 1979 ) xüsusi böyük müvəffəqiyyət qazandı . C . Cahangirov 1992 –cı il mart ayında vəfat etmişdir.

**Mühazirə № 8 .**

**C .Cahangirov " Azad " operasından xorlar .**

1957 ci ildə Opera və Balet teatrının səhnəsində C. Cahangirovun Cənubi Azərbaycan xalqının həyatından bəhs edən " Azad " operası səhnəyə qoyuldu . Operanın librettosunu xalq yazıçısı Mirzə İbrahimov və Hüseyin Hüseynzadə yazmışdır . Opera öz intonasiya təravəti , melodikanın gözəçarpan fərdiliyi , ariyaları , ariozaları xə mahnıları ilə ictimaiyyətin diqqətini cəlb etmişdir . " Azad " - xarici ölkə xalqlarının həyatını əks etdirən müasir mövzuda ilk operadır . Dramaturji konfliktin əsasını iki müxtəlif sosial qüvvənin - xalq və onun qəhrəmanları ilə feodal zadəganların : xanın , onun oğlu Yavərin və onların əhatəsinin bir - birinə qarşı qoyulması təşkil edir . Operanın baş qəhrəmanı , əsas ideyanın daşıyıcısı

xalqdır . Buna görə də xalqın təsvirinə böyük diqqət verilir . Xalq öz obraz məzmununa görə müxtəlif xor səhnələrində təsvir olunmuşdur . Bəstəkar xorlarda insanların daxili aləmini ifadə etməyə çalışır . Öz yaradıcılığında hər zaman olduğu kimi ,operada da Cahangirov muğama və xalq mahnılarına möhkəm istinad etməklə xorların möhtəşəm , polifonik baxımından dinləyicilərin mühakiməsinə təqdim etmişdir . Bu mənada operanın IV pərdəsində " Çahargah " muğamının intonasiyalarına əsaslanan xor xüsusilə diqqəti cəlb edir . " Çahargah " xoru bütün bu səhnənin mərkəzi xor nömrəsidir . Bəstəkar həmin xorda xalq milli janrını cəsarətlə , novatorcasına mənalandıraraq ilk dəfə olaraq taleyin hökmü ilə ev - eşiyindən ayrı düşmüş adamların daxili psixoloji vəziyyətin təsvirinə keçir . Lakin xalq kədər içərisində çox qalmır , mübarizə aparmaq əzmindədir , işıqlı gələcəyə inanır . Bu inam , ruh yüksəyliyi operanın axırıncı , yekun xorunda öz təcəssümünü tapır . " Azad " operası 5 pərdədən ibarətdir :

I Pərdə : Giriş və kəndlilərin xoru .

Xəlilin xor ilə mahnısı .

Kəndlilər xoru .

III Pərdə : Yavərlə Molla Vəlinin səhnəsi və xor .

Rəqs və xor .

IV Pərdə : Kəndlilərin xoru .

Çahargah ( xor ilə )

Ayaz ilə Həjirin dueti və xor

Xəlilin ariozosu və xor

Kəndlilər xoru .

V Pərdə : Giriş və kəndlilərin xoru

Səriyyə , Hürü ilə Yavərin səhnəsi və xor.

Xor

Son xor .

**Mühazirə № 9 .**

## C . Cahangirov " Fizuli " kantatası .

C . Cahangirovun xor musiqisindəki sənətkarlığı bəstəkarın ən populyar əsərlərindən biri olan " Fizuli " kantatasında parlaq şəkildə özünü büruzə verir . 1959 cu ildə Cahangirov M . Füzulinin 400 illiyi münasibətilə şairin qəzəlləri əsasında " Füzuli " kantatasını yaradır. Bu əsər xor kollektivlərinin repertuarında əsas yer tutur . M .Füzulinin qəzəllərinə yazılmış kontatadır . Kontatanın əsasını şairin " Söz " , " Məhəbbət " , " Məni candan usandırdı " mətnli məşhur qəzəlləri təşkil edir . Kontata musiqi inkişafı baxımından bir –birilə bağlı olmayan 3 hissədən ibarətdir . Əsər üçün götürülən kiçik qəzəllər kontatanın hissələrinin formasını , əsasən kupletli və ya üçhissəli sadə mahnı formasını da müəyyənləşdirir . Kantatanın II hissəsi sevgilisinin həsrətini çəkən şairin ifadəli obrazının təsvirindən ibarət kədərli mahnıdır . Bu hissənin melodikasında və inkişaf məntiqində muğamların təsiri xüsusilə aydın duyulur . " Məni candan usandırdı " adlı II hissə kontatanın lirik əsasını təşkil edir . Solo soprananın ifasında yumşaq və həzin mövzu asta , sakit tonalda axıb gedir . Kantatanın məhəbbət haqqında olan III hissəsi insan hissinin xeyirxahlıq və mərdliyinə həsr edilmişdir . Bu hissənin son bölməsi kantatanın lirik xəttinin davamıdır .Onun mərkəzi bölməsində isə kişi səsinin aktiv səslənməsi böyük əhəmiyyət kəsb edir .

## C. Cahangirovun " Sabir " oratoriyası .

C . Cahangirovun 1962 ci ildə Azərbaycanın böyük satirik şair Sabirin yubileyinə yazdığı oratoriya orijinallığı ilə fərqlənir . Müəllifin fikrincə oratoriya şairin əsərlərindəki müxtəlif personalların əhatəsində Sabirin öz obrazını yaradır . Burada personalların dedikləri , dialoqları , replikaları , xorlar şairin gələcək haqqında , xalqın kədərli taleyi haqqında fikirləri şərh edilmişdir . Ənənələrə zidd olaraq C . Cahangirovun oratoriyasında inkişaf edən bir sujet həddi yoxdur , o həm ədəbi , həm də musiqi cəhətdən tamaşa ilə müstəqil ayrı – ayrı nömrələrdən ibarətdir . Bu mənada oratoriya vokal xor süitasına daha yaxındır .

**Mühazirə 10 .**

**F . Əmirovun yaradıcılığı .**

Fikrət Məşədi Cəmil oğlu Əmirov 1922 ci ildə Gəncə şəhərində müğənni və tarzən ailəsində anadan olmuşdur . F. Əmirov ilk musiqi təhsilini Gəncə musiqi məktəbində almışdır . Oranı bitirdikdən sonra , o , Bakıya köçüb Azərbaycan Dövlət Konservatoriyasına professor B . İ . Zeydmanın bəstəkarlıq sinfinə daxil olmuşdur . Böyük vətən müharibəsi F . Əmirovun təhsilini yarımçıq qoyur , o da orduya gedir , voronej cəbhəsində vuruşur . 1943 ci ildə ağır xəstələndiyi üçün ordudan təxris olunub Bakıya qayıdır , 1944 cu ildə konservatoriyada təhsilini davam etdirir və 1948 ci ildə oranı bitirir . Hələ konservatoriyada təhsil illərində gənc bəstəkar " Ürəkçalanlar " , " Gözün aydın " musiqili komediyasını , konsert və simfoniya qədər müxtəlif mövzu və janrlara müraciət etmişdir . Fortepiano , skripka və orkestr üçün ikili konsert və A . Babayevlə birlikdə yazdığı konsert yaradıcılıq axtarışlarının uğurlu olduğunu təsdiq edirdi . F . Əmirov bir çox dramaturqların pyeslərinə musiqi yazmışdır . 1947 ci ildə Nizaminin anadan olmasının 800 illiyi münasibəti ilə " Nizami " simfoniyasını yazır . 1948 cı ildə o , " Şur " və "Kürdovşarı" muğamlarını yaradır . 50 ci illərdə F . Əmirov fortepiano pyeslərini , " 12 miniatür " fortepiano silsiləsini , ərəb mövzularında fortepiano ilə orkestr üçün konserti , həmçinin alban mövzularında iki fortepiano üçün süitasını yazmışdır . Bu dövrdə bəstəkar bir sıra xalq mahnılarını səs ilə fortepiano üçün işlənmiş , bir çox mahnılar yaratmışdır . O , dram pyeslərinə mahnılar yazmışdır . Məsələn : H . Cavidin " Şeyx Sənan " pyesindən korun mahnısını göstərmək olar . 1950 ci ildə dörd hissəli " Azərbaycan " simfonik süitasını yaradır . 1961 cı ildə yazdığı " Azərbaycan kapriççosu " orkestr üçün yazılmış əsərlərdən biridir . " Sevil " operasının yaradılması F . Əmirovun milli musiqi sənətinin böyük nəaliyyəti oldu , 50 ci ildə yazmışdır . 60 cı illərdə bəstəkar " Sevil " operasının yeni redaksiyasını işləmişdir . 70 ci illərdə o " Nəsimi " vokal - xoreoqrafik poemasını , simfonik orkestr üçün " Azərbaycan qravürlərini " yazmışdır . 70 ci illərin axırında F. Əmirov " Min bir gecə " nağıllarının motivləri əsasında eyni adlı baletini yaradır . Həmin balet M . F . Axundov adına Azərbaycan Dövlət Opera və Balet teatrının səhnəsində tamaşaya qoyulmuşdur . Balet geniş şöhrət qazanmış , Moskva başqa şəhərlərdə səhnəyə qoyulmuşdur .

## Mühazirə № 11 .

### F. Əmirovun vokal və xor əsərləri .

F. Əmirovun parlaq , gümrah tərzli melodiyasının ürəyəyatımlığı vokal lirikası sahəsində daha dolğun meydana çıxmışdır . Vokal əsərləri F. Əmirov üçün bir növ yaradıcılıq laboratoriyası idi . O yaradıcılığı üçün səciyyəvi olan obrazlar , mövzu , faktura tipi , harmonik dil işləmişdir . Bəstəkar üç romans və müxtəlif janrda 25 dən artıq mahnı yazmışdır . Onların içərisində " Koreyalının andı " sözləri S . Rüstəmindir qəhrəmanlıq-vətənpərvərlik mahnısını , " İki sahil " (sözləri N . Dorizonundur) romansını , tenor və boritonla simfonik orkestr üçün A. S. Puşkinin sözlərinə yazılmış " Qış yolu " duetini və Z . Cabbarzadənin sözlərinə yazılmış uşaq mahnılarını göstərmək olar .

" Gülüm " , " Gülərəm gülsəm " mahnıları , " Kor ərəbin mahnısı " yüksək lirikanın parlaq ifadəsidir . Həmin mahnılar əslində iki janrın mahnı və romans nümunələrinin birləşməsindən ibarətdir . F . Əmirovun mahnı janrına müraciət etməsi onun geniş kütləyə yaxınlaşmaq istədiyini təsdiq edir . Xalq musiqisi ilə bağlı olan və milli kütləvi mahnı janrına yaxınlaşan " Toy mahnısı " göstərmək olar . Bəstəkarın vokal yaradıcılığı Vətəni tərənnüm edən lirik mahnılar təşkil edir . Tərənnüm " Azərbaycan " mahnısında dolğun ifadə edilmişdir .

## Mövzu № 12 .

**Xor əsərlərinin dinləyişi : Ü. Hacıbəyovun " Leyli və Məcnun " , " Koroğlu " operasından xorlar .**

## Mühazirə № 13 .

### A . Əlizadə yaradıcılığı .

Aqşin Əlizadənin bəstəkarlıq fəaliyyəti 50 ci illərin sonlarından başlamışdır . O , 5 simfoniyanın , simfonik süitanın , kantatanın , simfonik orkestr üçün bir sıra müxtəlif janrlı əsərlərin , üç baletin , kinofilmlərə və dram tamaşalarına yazılmış musiqinin müəllifidir . A. Əlizadənin musiqisində muğam , mahnı və rəqslərimizin , aşıq musiqisinin

rəngarəng çalarları səslənir . Eyni zamanda folklora möhkəm diqqət etməklə , A . Əlizadə xalq yaradıcılığının intonasiya və ənənələrindən son dərəcə faydalanır . A .Əlizadə 1937 ci il mayın 22 də Bakıda anadan olmuşdur . Musiqi təhsilini Bülbül adına musiqi məktəbində , sonra Azərbaycan Dövlət Konservatoriyasında professor Cövdət Hacıyevin rəhbərlik etdiyi kompozisiya sinfində olmuşdur . Tələbəlik illərində " Gənc bəstəkarların I Ümumiittifaq Müsabiqəsində " A. Əlizadə fortepiano üçün yazdığı sonatasına görə birinci dərəcəli diplomla mükafatlandırılmışdır . 1962 ci ildə A .Əlizadə diplom işi kimi birhissəli simfoniyanı təqdim etməklə , Azərbaycan Dövlət Konservatoriyasında təhsilini başa vurur . Bu əsəri " Zaqafqaziya Baharı " musiqi festivalında I dərəcəli diploma layiq görülmüşdür . 1966 cı ildə A . Əlizadə kamera orkestri üçün ikinci simfoniyanı dinləyicilərin müzakirəsinə təqdim edir . O , 1969 cu ildə kamera tərkibi üçün "Pastoral " və " Aşıqsayağı " adlı iki pyes yazır . Onlar sonradan , 1998 ci ildə yeni yaradılmış " Cəngi " , " Noktürn " , " Rəqs " ilə birlikdə süita təşkil etmişlər . 1969 cu ildə yazılmış " Bayatılar " a capella xor silsiləsi Azərbaycan musiqisində müşayiətsiz xor üçün ilk silsilədir. Bəstəkarın yaradıcılığında ən önəmli əsərlərdən biri də 1976 cı ildə Fikrət Qocanın sözlərinə yazılmış " Azərilər " kantatasıdır . 70 ci illərdə A. Əlizadə həm xor , həm də simfonik musiqi sahəsində məhsuldarlıqla çalışır . Onun xor və simfonik orkestr üçün " Bayramsayağı " , a capella xor üçün " Vətən " , " Şərəfli əmək haqqında " kantata - mahnı , 1984 cü ildə a capella xoru üçün " Qədim Layla " yazılmışdır . 1977 ci ildə " Abşeron rəsmləri " , " Təntənəli marş " ( 1970 ci ildə) və " Cəngi " ( 1978 ) əsərlərini yazmışdır . A. Əlizadə tərəfindən yaradılmış simfonik janrlı 4 hssəli , bəstəkarın doğma Vətənə həsr edən " Kənd süitası " göstərmək olar . İ . Selvinskinin " Qartalı çiynində gəzdirən " yazılmış " Babək " baletinin premyerası ( 1979) həm A. Əlizadənin yaradıcılığında , həm də Azərbaycan musiqisində ilk milli qəhrəmanlıq baletinin yaranması mühüm hadisə oldu . Balet əsarətdən və təcavüzkar basqından xilas olmaq uğrunda mübariz kimi şöhrətlənən Babəkin rəhbərliyi altında Azərbaycan xalqının qaldırdığı böyük üsyanın tarixinə həsr olunmuşdur . 80 ci illərdə yazılmış Üçüncü və Dördüncü simfoniyalar bəstəkarın yaradıcılığında yeni pillə kimi əlamətdar olmuşdur . 90 cı illərdə Azərbaycan bəstəkarlarının qurultayında A. Əlizadənin Beşinci Simfoniyası ifa olunur . 2002 ci ildə Azərbaycan Opera və Balet teatrında " Qafqaza səyahət " səhnəyə qoyulur . Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvanın Azərbaycana səyahət etmiş fransız yazıçısı Aleksandr Düma ilə görüşləri , yazıçının təəssüratları , biraktlı baletin üç iri səhnəsində canlandırılır . 2008 ci ildə A. Əlizadənin " Ümid valsı " baleti də səhnəyə qoyulur .

**Mühazirə № 14 .**

**A. Əlizadə “ Azərilər ” kantatası .**

A. Əlizadənin yaradıcılığında ən önəmli əsərlərdən biridə Fikrət Qocanın sözlərinə yazılmış “ Azərilər ” kantatasıdır . 1976 cı ildə yazılmış bu kantata gənc müəllifin yaradıcılığında mühüm mərhələ olmuşdur . Milli zəminli və novator ifadə vasitələri ilə maraqlı olan bu əsər respublika ictimaiyyəti tərəfindən qeyd olundu və A . Əlizadə 1978 ci ildə Azərbaycan Dövlət Mükafatı laureatı adına layiq görüldü . Bəstəkar bu əsəri alovlu inqilabçı Məşədi Əzizbəyovun anadan olmasının 100 illiyinə həsr etmişdir . Kontatanın orijinal kiçik rekviyem olan ikinci hissəsi “ Dağın səsi ” ilk dəfə M. Əzizbəyovun xatirəsinə həsr olunmuş yubiley gecəsində səslənmişdir . Kantata 4 hissədən ibarətdir . Kantatada təbiət qüvvələri inqilabçıların qəhrəmanlığını nəql edir . Hissələrin adları da “ Dənizin səsi ” , “ Dağın səsi ” , “ Baharın səsi ” , “ Odlar yurdunun səsi” buradan doğur . Bəstəkar lirik xalq mahnılarının , qədim , kədərli , matəm nəğmələrinin həqiqi melodiyalarından istifadə edir .

**A . Əlizadə “ Bayatılar ” xor məcmuəsi .**

A .Əlizadə 1969 cu ildə yazılmış “ Bayatılar ” , “ a capella ” xor silsiləsi Azərbaycan musiqisində müşayiətsiz xor üçün ilk silsilədir . Bəstəkarın “ Bayatılar ” ı ancaq qarışıq xor ilə yerinə yetirilən xalq həyatından alınmışdır . Xalq poeziyasının gözəlliyini tərənnüm etdirən , özünəxas – lirik , məişət janr xüsusiyyətli bu musiqi lövhələri A. Əlizadənin yaradıcılıq uğuru idi. Bəstəkar instrumental müşaiyətdən imtina edərək səslərin tembri ilə məhdudlaşır . 10 nömrədən ibarət “ Bayatılar ” xor əsəri silsilə kimi qavranılır . Ayrı – ayrı nömrələr arasında intonasiya mövzu əlaqələri , onun vahid musiqi və mətn materialı ilə haşiyələnməsi silsilənin bütövlüyünü təmin edir .

1. Bayatı
2. Gözlə
3. El oba
4. Paltar tikdi
5. Hətta dağlar ağladı
6. Alma
7. Əllər

8. Gəzməyə get dostum

9. Yaxşı geyim

10 . İstərdim duman üstü olum

**Mühazirə № 15 .**

**N. Əliverdibəyovun yaradıcılığı .**

Nazim Əliverdibəyov 24 . 08 .1926 cı ildə Kislovodsk şəhərində anadan olub . O bəstəkar, həm də kino bəstəkarı , musiqi redaktoru olub . Azərbaycan Dövlət Konservatoriyasını bitirib .1957 – 1985 ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində və Azərbaycan Dövlət Konservatoriyasında dərs demişdir . 1964 – 1985 ci illərdə Bülbül adına orta ixtisas məktəbinin direktoru olub . Ü . Hacıbəyovun " Əsli və Kərəm " , " Leyli və Məcnun" operalarını yenidən orkestləşdirmişdir . Ü . Hacıbəyovun nəşr edilmiş " Leyli və Məcnun " ( 1983) və " Koroğlu " ( 1985) operalarını portituralarının redaktoru olmuşdur . Bəstəkar Ü . Hacıbəyovun dayısı oğludur . O Müsiqişünas Ağalar Əliverdibəyovun oğludur . N . Əliverdibəyov 1972 ci ildə Mirzə Şəfi Vazehin şeirləri əsasında " Muğam " birpərdəli balet , xoreoqrafik miniatürünü yazır . Bu balet uğurla Moskvada Çaykovski adına konsert zalında nümayiş edilmişdir . 1973 cu ildə " Cırtdan " operasını yazır . 1978 ci il iyunun 25 də Azərbaycan Dövlət Opera və Ballet teatrının səhnəsində göstərilmişdir . 1980 ci illərdə operanın böyük uğur qazanmağına baxmayaraq , sonralar 20 ildən artıq səhnəyə qoyulmayıb və 2009 cu ilin iyun ayında " Uşaq " ili münasibətilə yenidən bərpa olunub . Azərbaycan musiqi incəsənətində Nazim Əliverdibəyovun xüsusi rolu vardır . N . Əliverdibəyovun xor musiqisi , solistlər üçün " Azərbaycan " mahnısı , " Bizim kənd " , " Qarabağ " , " Dalğalar " mahnıları çox sevilmişlər Bəstəkar 1985 ci il fevralın 17 də 58 yaşında Bakıda vəfat etmişdir .

**Mühazirə № 16 .**

**A . Zeynallının yaradıcılığı .**

Asəf Zeynallı 1909 cu il aprelin 5 də Dərbənddə bağban ailəsində dünyaya gəlmişdi . Hələ körpə ikən atası vəfat etmiş , onu anası Əsbənd xanım böyütmüşdü . Ailə kasıb

olduğundan madii çətinliklə üzləşmişdir . Xalq muqisinin vurğunu olan Əsbənd xanım qarmonda məharətlə çalırdı . Asəfədə musiqiyə məhəbbəti o yaratmışdır . Asəf 7 yaşına çatanda anası onu Dərbənddəki realni məktəbə qoyur . Realnı məktəbin nəfəs alətləri orkestrində klarnet çalmağı öyrənir və az vaxtda mahir ifaçı kimi tanınır . 20 ci illərin əvvəlində maddi vəziyyətləri çətinləşən ailə Bakıya köçür . Asəf təhsilini 9 illik məktəbdə davam etdirir . Musiqiyə sonsuz həvəs onu hərbi məktəbin nəzdindəki orkestrə gətirir . 1923 cu ildə Asəf Azərbaycan Musiqi Texnikumuna daxil olur . İnadcıllığı sayəsində trubanı mükəmməl çalmağı öyrənib texnikumun rəhbərliyinin işçi klublarında təşkil etdiyi konsertdə çıxış edir . İlk yaradıcılıq addımlarını da texnikumda oxuduğu illərdə atmış , 1923 cu ildə “ Truba üçün marş ” adlı ilk əsərini yazmışdır . A. Zeynallı dahi bəstəkar Ü . Hacıbəyovun da diqqətini cəlb edir . Ü . Hacıbəyov yeniyetmədəki istedadı görmüş və “ bu ki , əsl istedaddır ” deyərək elə ilk günlərdən ona xüsusi qayğı göstərmişdir . Bir müddət Asəf səhhəti ilə əlaqədar violonçel sinfinə keçmiş , məşhur violonçel ustası Leopold Rostrapoviçdən dərs almışdır . Texnikumda violonçel üzrə məşğələlərə davam etməklə yanaşı o , pedaqoq N . V. Jenetskoydan fortepianoda çalmağı da öyrənmişdir . 1926 ci ildə Musiqi Texnikumunu konservatoriya ilə birləşdirdikdən sonra Asəf konservatoriyanın orkestr sinfinə daxil olmuş , lakin az keçmiş Ü . Hacıbəyovun məsləhəti ilə bəstəkarlıq şöbəsinə dəyişilmişdir . A. Zeynallı konservatoriyada oxuduğu illərdə yaradıcılıqla ciddi məşqul olmuş , bir – birinin ardınca müxtəlif mövzularda və janrlarda əsərlər yazmışdır . 1928 -1931 ci illər gənc bəstəkar üçün xüsusilə məhsuldar olmuşdur . Bu illər ərzində o , özünün vokal , mahnı , romans , fortepiano , ansambl əsərlərinin böyük qismini , o cümlədən “ Ölkəm ” romansını yazmışdır . İstedadlı bəstəkar konservatoriyada oxuduğu illərdə xalq mahnı intonasiyalarına əsaslanaraq yazdığı xor ilə orkestr üçün “Şikəstə ” , fortepiano üçün “ Muğam sayağı ” əsərləri indidə sevilə - sevilə ifa olunur . 1931 ci ildə konservatoriyanın bəstəkarlıq şöbəsini müvəffəqiyyətlə bitirən Asəf intensiv olaraq yeni əsərlər üzərində işləyir . 1931 ci ildə Leninqrada səfər edir . Leninqrad Filarmoniyasında Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil edir . Leninqraddan qayıtdıqdan sonra A . Zeynallı iri simfonik əsər yazmaq fikrinə düşür və özünün yeni simfoniyasını Vətənə həsr etməyi qərara alır . Lakin ölüm onu bu arzusunu həyata keçirməyə imkan vermir . Asəfin yaradıcılığında Azərbaycan xalq mahnılarının tədqiqi də mühüm yer tutur . Onları diqqətlə öyrənir və yaradıcılığı üçün əsas istinad materialı kimi götürürdü . O dövrdə Azərbaycan Dövlət Konservatoriyası yanında elmi tədqiqat kabineti fəaliyyət göstərirdi . Həmin qurumun əsas vəzifəsi xalq mahnılarının toplanılıb nota alınması idi . 1932 ci ildə yayda Asəf məşhur müğənni Bülbüllə birlikdə xalq mahnılarını toplamaq üçün Qarabağa gedir . A. Zeynallı təkcə özü əlliyə yaxın xalq mahnısı nümunəsi əldə edir . Lakin evə qayıdan zaman yolda yatalaq xəstəliyinə tutulur . Bir müddət müalicə olunsada nəticə vermir . 1932ci il oktyabrın 27 də vəfat edir . A. Zeynallının fortepiano yaradıcılığında ən maraqlı əsərlərdən biri 6 pyesdən – “ Kuklaların marşı ” , “ uşaq və buz ” , “ oyun ” , “ rəqs ” , “ qoyunlar ” və s . O bu pyesləri ilə Azərbaycanda uşaq fortepiano miniatürünun əsasını qoymuşdur .

## Mühazirə № 17 .

## A . Zeynallının romansları .

Azərbaycan musiqi tarixində ilk romanslar A. Zeynallının adı ilə bağlıdır . 23 il ömür sürməsinə baxmayaraq milli musiqi sənətində silinməz iz qoymuşdur . Milli romans , piano və simfonik musiqinin banisidir . Onun " Ölkəm " , " Sərhədçi " , " Çadra " , " Sual " , " Seyran" romansları milli vokal musiqimizin inciləridir . Bu əsərlər həqiqətən milli vokal lirikasının əsasını qoyan , onun inkişafı üçün geniş imkanlar açan əsərlər idi . Bəstəkarın vokal yaradıcılığından danışarkən ilk növbədə " Ölkəm " romansı yada düşür . Bəstəkar bu romans üçün görkəmli Azərbaycan dramaturqu C. Cabbarlının eyniadlı şeirindən istifadə olunub . Romansda Vətən " Şiş ucları buludlarda döyüşən , dağlarında buzları var ölkəmin " deyə məhəbbətlə tərənnüm edilir . Azərbaycanın füsunkar təbiəti təsvir olunan bu romans " Şur " klassik muğamının əsasında yazılmışdır . " Sual " adlanan romans üçün A. Zeynallı xalq sözlərindən istifadə etmişdir . Məhəbbət hisslərini tərənnüm edən bu romansda sevgilisini axtaran bir gənc sualla müraciət edir ki , onu görən olubmu ? Bu sual bütün romans boyu fasiləsiz olaraq təkrar olunur . Vokal əsərlərinin əksəriyyəti qəhrəmanlıq , vətənpərvərlik mövzusuna həsr edilmişdir . Məsələn vətənpərvərlik romansı olan " Sərhədçı " , vətən haqqında , doğma təbiət haqqında " Ölkəm " i yazmışdır . " Çadıra " lirik əhvali – ruhiyyəli , " Seyran " , " Sual " romansları həyəcanlı , qəmli dramatik lirikanın obrazlarını təcəssüm etdirən əsərlərdir . Asəf Zeynallının əsərləri öz bədii təravətini itirməyərək müasir zamanda da sevilə -sevilə oxunur .

## Mühazirə № 18 .

## R . Mustafayevin xor əsərləri .

Azərbaycan Respublikasının xalq artisti R . Mustafayev yaradıcılığ baxımından XX əsrin ikinci yarısından formalaşmış bəstəkarlar nəslinə mənsubdur . R . Mustafayev 8 simfoniya , 5 opera , o cümlədən " Vaqif " , " Polad " , " Xan və əkinçi " , " Şirin " , " Tərs keçi " operalarının , 6 musiqili komediya , 9 oratoriya , kantatalar , 300 dən çox mahnı və romanslar , xor üçün mahnı işləmələrinin müəllifidir . R. Mustafayev 1926 cı il oktyabrın 16 da Çarcou şəhərində ( Türkmənistanda ) doğulmuş , tezliklə ailə köçüb Bakıya gəlmişdir. 1941 ci ildə R . Mustafayev Teatr Texnikumunun aktyorluq şöbəsinə daxil olur . Təhsil illərində Gənc Tamaşaçılar teatrında , sonra isə Azərbaycan Dövlət Dram Teatrında işləməyə başlayır . Daha sonra musiqi məktəbinin vokal və nəfəs alətləri şöbəsində təhsilə başlayır . 1948 ci ildə R .Mustafayev Azərbaycan Dövlət Konservatoriyasının vokal fakültəsinə daxil olur . O , dahi Bülbülün sinfində vokal sənətinin sirlərini öyrənir və 1952 ci ildə təhsilini başa vurur . 1952 ci ildə R . Mustafayev yenidən Azərbaycan Dövlət

Konservatoriyaının bəstəkarlıq fakültəsinə , B . Zeydmanın sinfinə daxil olur , 1957 ci ildə təhsilini başa vurur . 60 cı illərdə bir birinin ardınca onun komediyaları işıq üzü görür . Bunlar sadə əməkçilərin həyatına həsr edilmiş " Axırı yaxşı olar " , ailə - məişət mövzusunda " Qonşular " , sonra " Qonşunuzda bir oğlan var " , " Məsmə mənim dayımdır " musiqili komediyalarıdır . R . Mustafayev hələ 1958 ci ildə bəstəkar V. Adıgözəlovla birlikdə " Hacı Qara " komediyası əsasında " Xəsis " operasını yazmışdır . Xor musiqisi janrında 1958 ci ildən Azərbaycan Televiziya Verilişləri Komitəsinin xor kollektivinin rəhbəri və dirijoru vəzifəsində çalışan bəstəkarın yaradıcılığında mühüm yer tutur . Onun tərəfindən xor üçün , " Taras Şevçenko " kantatası , " Bayramsayağı kantata " , " Oktyabr " oratoriyasını , " Azərbaycan " və " Yoldaş fəhlə " odalarını yazır . 1967 ci ildə bəstəkar 5 hissəli " Oktyabr " oratoriyasını yazır . " Nəriman Nərimanov " oratoriyası 1979 cı il . " Mənim müasirim " ( 1983 ) , " Ana " ( 1983) , " Nizami " ( 1993) , " Salatın " oratoriyasını yazır . I simfoniya R . Mustafayev 1971 ci ildə yazılmış və Xəzər neftçilərinə həsr olunmuşdur . Bütövlükdə bəstəkar tərəfindən 8 simfoniya yazılmışdır . " Bakının ulduzları ", " Yadıma sən düşürsən " , " Mən Bakı fəhləsiyəm " , " Sənin gözlərin " , " Qızıl əllər " və s. mahnılarını göstərmək olar . R . Mustafayev 2008 ci ildə fevralın 10 da Bakıda vəfat etmişdir .

**Mühazirə № 19 .**

**C . Hacıyevin yaradıcılığı .**

C . Hacıyev Azərbaycan bəstəkarlıq məktəbinin parlaq nümayəndələrindən biridir . Əsl sənətkar , vətəndaş kimi C . Hacıyev öz yaradıcılığında müasirliyin ən aktual problemlərinə toxunur , düşünməyə vadar edir . Bəstəkarın yaradıcılıq yolu – milli xalq incəsənəti , Üzeyir Hacıbəylinin ənənələrini yaradıcılıqla davam etdirən sənətkarın təşəkkül yoludur . C . Hacıyev 1917 ci ildə Şəkidə ( keçmiş Nuxada) anadan olmuşdur . 1924 cü ildən o , ailəsi ilə birgə Bakıya köçür . İlk musiqi təhsilini musiqi məktəbində , sonra isə Konservatoriyanın nəzdində olan fəhlə fakültəsində ( Rabfakda) alır . 1935 ci ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olur .

İlk əsərlərini o , 1936 – 37 ci illərdə qələmə alır . Bu Azərbaycana və Puşkinin 100 illiyinə həsr olunmuş simfonik poemalar və simfoniyyeta idi . 1938 ci ildə C .Hacıyev Q.Qarayevlə birgə Moskva Konservatoriyasında təhsilini davam etdirir . 1941 ci ildə başlanan Böyük Vətən müharibəsi onun təhsilini yarımçıq qoyur . Hələ təhsil illərində bəstəkar yaradıcılığını davam etdirir : ikili fuqa : simli kvartet üçün 3 fuqa , orkestr üçün " Azərbaycan süitası " nı yazır . 1944 ci ildə Tiblisi şəhərində Zaqafqaziya Respublikalarının dekadasında bəstəkarın I simfoniyası səslənir və ən yaxşı əsərlərdən biri kimi qiymətləndirilir . 1945 ci ildə C. Hacıyev Q. Qarayevlə birgə " Vətən " operasını yazır .

Opera SSRİ Dövlət mükafatına layiq görülür . Bu əsərlər onun sənətdə magistral yolunu müəyyən edir və onun tələbəlik dövrünün yaradıcılıq bioqrafiyasını tamamlayır . 1947 ci ildə o Moskva Konservatoriyasında təhsilini bitirir . 1956 cı ildə IV simfoniya meydana gəlir və respublikamızın musiqi həyatında əlamətdar hadisə kimi qiymətləndirilir. D. Şostakoviç əsərə olduqca yüksək qiymət vermişdir . Əsər 5 hissəlidir . Bəstəkarın V simfoniyası " İnsan , yer ,kosmos " adlanır . Simfoniyanın kompozisiya quruluşu ənənəvi deyil . O iki hissədən və yeddi fəsildən ibarətdir . Əsl vətəndaş kimi C. Hacıyev də 1990 cı il Yanvar hadisələrinə , Qarabağ müharibəsinə biganə qalmamış , öz ürək ağrılarını , düşüncələrini VII simfoniyasında ifadə etdirmişdir . C. Hacıyevin simfonik əsərlərindən danışarkən " Sülh uğrunda " simfonik poemasının adını çəkmək lazımdır . Bəstəkarın yaradıcılığında f – no musiqisi də mühüm rol oynayır . Bu mənada onun f – no üçün yazdığı " Ballada " , sonata , 8 süitadan ibarət uşaqlar üçün yazılmış " Musiqi şəkilləri " əsərlərini qeyd etmək lazımdır . Bəstəkar uzun sürən xəstəlikdən sonra 2002 ci ildə Bakı şəhərində vəfat etmişdir .

## Mühazirə № 20

### C . Hacıyevin " Vətən " operası .

Cövdət Hacıyev Q. Qarayevlə birlikdə bəstələdiyi " Vətən " operası 1945 ci ildə Azərbaycan Opera və Balet Teatrında tamaşaya qoyulmuşdur . Operaya quruluş verən rejissor İsmayıl Hidayətzadə , rəssam isə İzzətxan Səidov , dirijor maestro Niyazi idi . Müəlliflərə bu operaya görə Stalin mükafatı verildi . Hadisələr alman faşist işğalçılarının SSRİ torpaqlarından qovulmağa başlandığı dövrdə baş verir . Əsərdə çoxmillətli sovet xalqının apardığı ümumi azadlıq mübarizəsində Azərbaycan xalqının qəhrəman oğullarının yaxından iştirak etməsi təsvir edilir. Böyük Vətən müharibəsində rəşadət göstərən Azərbaycan xalqının qəhrəman oğulları , " Vətən " operasında bədii surətlərdə əbədiləşdirilmişdir . Surətlər : Aslan , Mərdan , Dilbər , Baxşı , Aşıq Səlim və b.

Operada hadisələr Azərbaycan kəndlərinin birində başlayır . Kəndə gələn leytenant Aslan öz dostu Sergeylə cəbhədə faşistlərə qarşı vuruşlarından və qəhrəmanlıqlarından danışır . Bu söhbətlərdən ruhlanan kədlilər də könüllü olaraq cəbhəyə getmək qərarına gəlirlər . Onlar arasında Aslanın sevgilisi Dilbər , eyni zamanda xalq arasında öz işinə etinasızlıq göstərən kimi tanınan Mərdan da vardır . Lakin Aslanın qəhrəmanlıq nümunəsi onu da cəbhəyə gedib faşistlərlə vuruşmağa həvəsləndirir . Belə döyüşlərin birində Mərdan yaralanaraq əsir düşür , işgəncələr verilsədə ondan qoşunlarımız haqqında heç bir məlumat ala bilmirlər . O , mərdliklə zindanda həlak olur . Qoşunlarımız faşistlərə qarşı hücuma keçirlər , düşmənlər qorxuya düşərək qaçırlar . Operanın qəhrəmanlarından olan Mərdanın ariyasında biz onun sevgilisinin həsrətini çəkdiyini hiss edirik . Dilbərin ariyası isə bir növ

xalq bayatılarını xatırladır . Hər iki ariyada əsərin müəllifləri Azərbaycan xalq musiqisi nümunələrindən çox məharətlə istifadə edə bilmişlər . Bu əsər bizim milli opera sənətimizin inkişafında müəyyən rol oynamışdır .

## Mühazirə № 21.

## V . Adıgözəlovun əsərləri .

Vasif Adıgözəlov 1935 ci il 28 iyulda Bakı şəhərində məşhur müğənni Zülfi ( Zülfüqar) Adıgözəlovun ailəsində anadan olmuşdur . Bəstəkar musiqi təhsilini Bülbül adına onillik musiqi məktəbində almışdır . 1953 cu ildə bəstəkar konservatoriyaya Q . Qarayevin bəstəkarlıq sinfinə və dosent F . Quliyevanın fortepiano sinfinə daxil olur . O , 1957 ci ildə " Qəhrəmanlıq " adlı simfonik poemasını , 1958 ci ildə Birinci simfoniyasını təqdim edib , konservatoriyanı bitirir . Konservatoriyanı bitirəndən sonra " Ölülər " operasını yazır . Opera yazmazdan bir il əvvəl V. Adıgözəlov bəstəkar R . Mustafayevlə birlikdə " Hacı Qara " operettasını yaradır . R . Mustafayevlə birgə " Səbuhi " vokal simfonik poemasını yazmışdır. 1968 ci ildə bəstəkar Azərbaycan Bəstəkarlar ittifaqının III qurultayında " II simfoniyası " ilə çıxış edir . Bəstəkar " Şərikli çörək " , " Həyat bizi sınayır " , " Skripkanın qaytarılması " kimi filmlərə musiqi bəstələyir . 60 cı illərdə Azərbaycanda yazılan mahnılar içərisində V . Adıgözəlovun mahnıları xüsusi yer tutur . Ü . Hacıbəyovun T. Quliyevin ənənələrini davam etdirən V .Adıgözəlovun mahnılarını " Bahar " , " Lirik mahnı " , " Damlalar " , " Çiçəyimsən " , " Unutdun məni " , " Məhəbbət mahnısı " , " Xoşbəxtlik mahnısı " , " Ay sevgilim " , " Bakı " , " Gözləməsin , neyləsin " , " Kənd müəllimi " , və s. göstərmək olar . Bəstəkarın mahnı – romanslarıda Azərbaycan vokal sənətinin inciləri hesab oluna bilər . Bu janrdakı əsərləri bunlardır : " Qərənfil " , " Yeddiçinar " , " Yuxular ", " Yenə o bağ olaydı " , " İntizar " , " Şair , nə tez qocaldın sən " , " Laylay" . Adları çəkilən mahnı – romanslarda sözlər musiqi ilə vəhdət təşkil edir .

Bəstəkarın Xurşidbanu Nətavanın sözlərinə yazdığı " Qərənfil " əsəri instrumental solo ifaçılığında ən çox müraciət olunan əsərdir . V. Adıgözəlov dörd simfoniyanın , altı instrumental konsertin , beş musiqili komediyanın , " Segah " simfonik muğamın və dörd oratoriyanın müəllifidir . Müəllifin " Odlar yurdu " , " Qarabağ şikəstəsi ", " Çanaqqala " , " Qəm karvanı " oratoriyaları da məhz bu ruhda yazılmış əsərlərdir . Bəstəkarın " Odlar yurdu " oratoriyası 10 hissədən ibarətdir . " Qarabağ şikəstəsi " oratoriyasında qələbə , qətiyyət və inam ifadə edilir . " Çanaqqala " oratoriyası türk ruhunun yenilməzliyini əks etdirən musiqi abidəsi kimi qiymətləndirmək olar . Bəstəkarın " Qəm karvanı " oratoriyası estetik qayəsinə görə rekviyem və memorial xarakter daşıyır . Bəstəkar Xurşidbanı Nətavanın 170 illik yubileyinə həsr olunan " Nətavan " operasını yazmışdır . Opera 2005 ci ildə M . F . Axundov adına opera və balet teatrında tamaşaya qoyulmuşdur.

Görkəmli bəstəkarın yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilib . O , 1973 cü ildə “ Əməkdar incəsənət xadimi ” , 1989 cu ildə “ Xalq artisti ” fəxri adlara layiq görülüb . Bəstəkar 2006 cı il sentyabr ayının 9 da vəfat etmişdir .

**Mövzu № 22 .**

**Xor əsərlərinin dinləyişi : A . Əlizadə “ Azərilər ” kantatası .**

**Mövzu № 23 .**

**Xor əsərlərinin dinləyişi .**